UOT 94 (479.24)

# AZƏRBAYCANDA ÇOXPARTİYALI SİSTEMİN XÜSUSİYYƏTLƏRİ

**C.M.ƏSGƏROVA**
***Bakı Dövlət Universiteti***
***askerovadzhamala.rambler.ru***

*Siyasi mübarizənin genişlənməsinin nəticəsi olaraq siyasi sistemdə baş verən dəyişikliklər təkpartiyalılığın ləğvinə, çoxpartiyalılığın bərqərar olmasına zəmin yaratdı. Siyasi partiyaların sayının artmasında, sözsüz ki, 1992-ci ildə " Siyasi partiyalar haqqında " verilən qanunun da özünəməxsus rolu olmuşdur. Bu gün Azərbaycanda qeydiyyatdan keçən partiyaların sayının 54 olmasına baxmayaraq, parlamentdə demək olar ki, təmsil olunmurlar.*

**Açar sözlər:** siyasi partiya, siyasi sistem, təkpartiyalılıq, çoxpartiyalı sistem, siyasi mübarizə

70-ci illərin sonu 80-ci illərin əvvəllərində sovet cəmiyyətinin siyasi sistemi mürəkkəb və ziddiyyətli xarakter daşıyırdı. Demokratik forma ilə bürokratik siyasi sistem arasındakı ziddiyyət özünü xüsusilə göstərirdi. Belə bir siyasi sistemin mövcud olması müxtəlif sahələrdə durğunluğa gətirib çıxartdı. Yaranmış vəziyyət sovet cəmiyyətinin geniş potensialından, demokratik prinsiplərdən tam şəkildə istifadə etməyə imkan vermirdi. Bütün hakimiyyət, demək olar ki, Kommunist partiyasının əlində cəmlənmişdi. Partiya komitələrinin çoxunda isə köhnəliyə meyllik üstünlük təşkil edirdi. Lakin Azərbaycan mühüm nailiyyətlər qazanaraq ölkənin ön mövqelərindən birinə çıxmışdır.

80-ci illərin sonu 90-cı illərin əvvəlində isə siyasi mübarizənin genişlənməsinin nəticəsi olaraq siyasi sistemdəki demokratik dəyişikliklər təkpartiyalılığın ləğvinə, çoxpartiyalılığın bərqərar olmasına zəmin yaratdı (1, 5). Demokratikləşdirmə siyasəti nəticəsində keçmiş Sovetlər İttifaqının bütün respublikalarında, eləcə də Azərbaycanda demokratik cəmiyyətlər, siyasi partiyalar təşəkkül tapdı. Yeni partiyaların yaranması seçki kompaniyalarından əvvələ təsadüf edir.

Həmin illər ictimai istehsalın artması, ölkənin vahid xalq təsərrüfatı kompleksində Azərbaycanın payının çoxalması, ictimai-siyasi və mənəvi həyatın bütün istiqamətlərində daha da irəliləyişlər əldə edilməsi ilə xarakterikdir. Heydər Əliyev sovet imperiyası dövründə sərt totalitar rejimin, az da olsa,

verdiyi imkanlardan maksimum istifadə edərək Azərbaycanın sosial, iqtisadi, mədəni inkişafı, yəni onun çiçəklənməsi üçün mümkün olan hər şeyi etməkdən çəkinməmişdi. Nəticədə milli gəlir, xalq təsərrüfatının inkişafına kapital qoyuluşu artmışdı.

Milli-ictimai siyasi hərəkat, ermənilərin Azərbaycana qarşı olan ərazi iddialarına qarşı yüksələn ümumxalq müqaviməti bir çox siyasi birliklərin təsis edilməsinə gətirib çıxartmışdı.

90-cı illərin əvvəllərində cəmiyyətin siyasi fəallığının artması ilə əlaqədar olaraq siyasi partiyaların yaranması prosesinin əsası qoyuldu. Azərbaycanda ilk qeyri-fəal təşkilatlar Dağlıq Qarabağ məsələsindən əvvəl, M.S.Qorbaçov tərəfindən aşkarlıq və demokratiyanın elan edilməsindən sonra meydana çıxmışdı. Bu zaman qabaqcıl və yetişməkdə olan gənc ziyalılar xalqın özünü dərk etməsi üçün bir sıra ictimai birliklər və təşkilatların yaranmasını qarşılarına məqsəd qoymuşdular. Təşkilatlar, saylarının az olmasına baxmayaraq milli şüurun oyanması və xalqımızın siyasi təşkilatlanma prosesində vacib faktorlardan idilər. Sistem zəiflədikcə bu cəmiyyətlərin fəallığı, toxunduğu məsələlər dairəsi və aşkarlığı da artırdı. Siyasi müxalifətin sosial bazasının artmasının səbəbi respublika rəhbərlərinin bacarıqsızlığı oldu. Yaranan cəmiyyətlər gələcəkdə yaranacaq partiyaların rüşeymləri idilər.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya aktı qəbul edildi. Müstəqilliyini bərpa edən respublikamız demokratik qanunlar qəbul etməyə başladı (2, 2).

1992-ci ildə qəbul edilən "Siyasi partiyalar haqqında" qanun yeni partiyaların yaranmasına şərait yaratdı. 1992-ci ildə Yeni Azərbaycan Partiyası, Azərbaycan Milli İstiqlal Partiyası, Ana Vətən Partiyası, Müsavat Partiyası, Vətəndaş Həmrəyliyi Partiyası, Birlik Partiyası və s. 1993-cü ildə Dirçəliş və Tərəqqi Partiyası, Vahid Azərbaycan Milli Birlik partiyası və s. partiyalar yaranmağa başlamışdı ( 3, 338).

Çoxpartiyalılığa keçid XX əsrin 90-cı illərində Azərbaycan cəmiyyətinin təkamülünün ən mühüm nailiyyətlərindən biri olmuşdur. Partiyaların çoxluğu şəraitində onların pərakəndəliyi siyasi sistemin səmərəli fəaliyyətinə mənfi təsir edən amillərdəndir. Partiyaların süni surətdə çoxalması siyasi qüvvələrin potensialının cəmlənməsinə əngəl olur, təsir imkanlarını daha da azaldır. "Azərbaycanda İctimai birliklər haqqında" və " Siyasi partiyalar haqqında" qanunlarının qəbul edilməsinə baxmayaraq müasir dəyişiklikləri nəzərə alan yeni qanun qəbul edilməmişdir. Yalnız " Siyasi partiyalar haqqında" verilən qanuna müvafiq olaraq 1996, 2001-2007-ci illərdə bir sıra əlavələr və dəyişikliklər edilmişdir. 2002-ci il avqustun 25-də Azərbaycan Respublikasının Konstitusiyasında referendum yolu ilə edilmiş əlavə və dəyişikliklər siyasi partiyaların fəaliyyətində köklü dəyişikliyə səbəb olmuşdur. Eyni zamanda proporsional seçki sisteminin ləğvi ilə bağlı konstitusiyada düzəliş edilmişdir.

Dövlətçiliyimizin inkişafı üçün siyasi təşkilatlanma olduqca vacibdir. Siyasi təşkilatlanma çoxpartiyalılıq əsasında inkişaf etməkdədir.

Hakimiyyətdə siyasi qüvvələrin dəyişilməsinə şərait yaradan partiya eyni zamanda ideologiyanın daşıyıcısı da hesab olunur. Eyni maraq və prinsiplərə malik olan insanların qruplaşmasını da partiya hesab etmək olar. Partiya hakimiyyət uğrunda mübarizə aparır və ya hakimiyyətin həyata keçirilməsində iştirak edir. Hər bir siyasi partiya xalqın dəstəyini qazanmağa çalışır. Bu dəstək üzvlüyün artmasından başlayaraq seçkilərdə olan dəstəyə qədər gəlib çıxır (4, 18).

Partiya sistemləri birpartiyalı, ikipartiyalı, çoxpartiyalı sistemlərə bölünür. Demokratik cəhətdən inkişaf etmiş ölkələrin əksəriyyətində bu gün ikipartiyalı siyasi sistem təşəkkül tapmışdır. İkipartiyalı sistem əslində kəskin plüralist çoxpartiyalılığın tarixi təkamülü nəticəsində yaranmış müasir mərhələsidir. Onlardan biri hakimiyyətdə, digəri isə müxalifətdə olur və hakimiyyətdən narazı olanlar onun ətrafında birləşir. Hökumətin fəaliyyətində yer tapmayan məsələlər müxalifət partiyasının siyasi proqramına çevrilir. İki partiyanın mövcudluğu siyasi sabitliyi təmin edir. Adətən cəmiyyətdə iki aparıcı partiya ilə yanaşı onlarla kiçik siyasi partiyalar da mövcud olur və onlar nüfuzlarını artırmaq məqsədilə səs toplamağa çalışırlar. İkipartiyalı sistem ümummilli seçkilərdə partiyalardan birinin parlamentdə yerlərin əksəriyyətinin sahibi olmasını təmin etməklə hökumətin stabil və mübariz formada öz proqramını həyata keçirməsinə imkan verərək dövlət hakimiyyətini möhkəmləndirir. İkipartiyalı sistem siyasi stabilliyin təminatçısı sayılmasına baxmayaraq nöqsanlardan xali deyildir. Bu sistemdə siyasi rəqiblər diqqəti iqtidar partiyasının buraxdığı səhvlərə yönəldirlər və bütün potensiallarını onun hakimiyyətdə öz yerlərini tutmağa sərf edirlər.

Siyasi partiyaların meydana gəlməsinin səbəbinin biri adamların keçmiş cəmiyyətə nisbətən siyasi fəaliyyətə daha həvəslə qoşulması idisə, digər səbəbi isə artıq dövlət ideologiyasının iflasa uğraması nəticəsində ortaya çıxan boşluğun doldurulması ehtiyacı idi.

“Siyasi partiyalar haqqında” verilən qanun yeni yaranmaqda olan partiyaların fəaliyyətinin tənzimlənməsinə şərait yaratdı. Siyasi partiyaların cəmiyyətdə funksiyalarını tam yerinə yetirmələri üçün hər bir ölkə müəyyən tarixi inkişaf mərhələsi keçməli olmuşdur (5, 3).

Azərbaycanda keçid mərhələsi adlandırılan bu mərhələ demokratik cəmiyyət quruluşuna keçid dövründə demokratiyanın əsas atributlarından biri kimi çoxpartiyalılıq hesab olunur. Təbii ki, ölkənin çoxpartiyalı sistemə keçməsi tarixi keçmişindən, cəmiyyətin real norma və qaydalarından asılıdır. Məhz demokratik prinsipləri əsas götürərək Azərbaycan Respublikası çoxpartiyalılıq yolunu seçmiş oldu.

Çoxpartiyalılığın tipologiyasını vermək asan deyil. Üç partiyalılıqdan başlayaraq müəyyən sayda ola bilər. Bütün bu partiyalar bir-birlərindən fərqlənirlər. Hər ölkədə çoxpartiyalılıq tarixi şəraitlə də əlaqəli müxtəlif cür formalaşa bilər. Partiyaların sayının çox olması hələ çoxpartiyalılıq demək deyil, onların bilavasitə hakimiyyətin təşkili işində fəal surətdə necə iştirak etməsidir. Çoxpartiyalılığın formalaşması üçün vacib olan əsas şərt cəmiyyətdə siyasi

plüralizmin mövcudluğu və eləcə də cəmiyyətdə mövcud olan sosial qrupların öz aralarında apardığı rəqabətin göstəricisidir (6, 19).

Təkpartiyalı siyasi sistemlərdə çox hallarda digər siyasi partiyaların yaradılmasına qanunla icazə verilsə də praktikada buna imkan verilmir. Partiya bütün siyasi fəaliyyəti inhisarlaşdırır, partiyadan kənar və partiyanın müəyyənləşdirdiyi sərhəddən kənarda istənilən siyasi fəaliyyət qanundan kənar sayılır. Birpartiyalı sistem adətən demokratik ənənələrin zəif olduğu ölkələrdə qərarlaşır. Müstəqillik qazanana qədər dövlətçilik təcrübəsi və demokratik ənənələri olmayan, inkişaf səviyyəsinə görə geridə qalmış ölkələrdə bir partiyalı sistem daha çox səmərə verir. Təkpartiyalı sistemin üstünlükləri isə siyasi qərarların qısa müddətdə qəbul edilməsi və həyata keçirilməsi, hakimiyyətin uzun müddət stabil olması və müvafiq olaraq müəyyən strateji layihələri həyata keçirməyi mümkün olması, millətin inteqrasiyasının təmin edilməsi, milli toqquşmaların baş verməsinin qarşısının alınması, cəmiyyətin vahid mənəvi faktorlar əsasında birləşməsi, xalq kütləsinin asanlıqla siyasi proseslərə cəlb edilməsidir (7, 46).

Bir sıra üstünlüklərin olmasına baxmayaraq təkpartiyalı sistem uzun müddət fəaliyyət göstərə bilmir. Sosial təbəqələşmə, istehsalda məhsuldar qüvvələrin inkişafı təkpartiyalı sistemin dağılmasına gətirib çıxarır. Müstəqilliyin birinci mərhələsində mütərəqqi rol oynasa da, sonradan sosial tərəqqini ləngitməyə başlayır. Təkpartiya dövlət strukturları ilə birləşərək hakimiyyəti inhisara çevirməyə çalışır. Həmkarlar ittifaqı və digər ictimai təşkilatlar partiyanın nəzarəti altında olduğundan öz üzvlərinin belə mənafelərini də müdafiə etmək imkanından məhrum olmuşdular. Rəsmi mövqedən fərqli bir mövqeyi bildirmək mümkün deyil, seçicilər yalnız hakim partiyanın legitimliyini təsdiqləmək məqsədi güdür.

Təkpartiyalı sistemin gizli forması "kvazi çoxpartiyalı" sistemdir. Bundan əlavə bu sistemi "xəyali çoxpartiyalı sistem" adlandırırlar. Cəmiyyətdə siyasi partiyaların sayı çox olsa da, hakim partiya təkpartiyalı ölkələrdəki partiyaların rolunu oynayır. Digər partiyalar demokratiya fonu yaradaraq yalnız hakim partiyanın iradəsini yerinə yetirirdilər. Belə bir çoxpartiyalı sistem Çin üçün xarakterikdir. Burada kommunist partiyası ilə birlikdə doqquz partiyanın mövcud olmasına baxmayaraq bütün hakimiyyət yalnız kommunist partiyasının əlində cəmlənmiş vəziyyətdədir. Yəni cəmiyyətdə bir partiyalı sistemdə olduğu kimi yalnız bir partiya hegemonluq edir ( 8).

Gec-tez təkpartiyalı sistem yerini çoxpartiyalılığa verməli olur.

Çoxpartiyalılıq partiyaların fəaliyyətinə heç bir məhdudiyyət qoymayaraq, siyasi hakimiyyətdə olan inhisarlaşmanın qarşısını almağa və hakimiyyətin etimad qazanmasına şərait yaradır. Eyni zamanda o cəmiyyətin siyasi qruplara bölünməsi prosesidir. Çoxpartiyalılığın da özünə məxsus olan müsbət və mənfi cəhətləri var.

Müsbət cəhətləri ilk növbədə insanların qabiliyyətləri, maraqlarını vahid cəmdə birləşdirən bir vasitə olub digər maraq, qabiliyyətlərlə mübarizədə cəmiyyətin ən mühüm məsələlərinin həllinə yönəltməsidir.

Bundan əlavə olaraq çoxpartiyalılıq siyasi məsələlərin hərtərəfli işıqlandırılması, siyasi mövqeyin varlığı, bürokratçılığa sədd olan müxalifətin varlığı, partiyalara rəqiblər üzərində qələbə üçün lazım olan mütəşəkkilliyin, intizamın aşılanması, siyasi mübarizə üçün bacarıqlı insanların seçilməsi, xalqın iradəsinin təcəssümü olan siyasi quruluşun mövcudluğu üçün əhalinin səfərbər edilməsi, xalqın iradəsindən düzgün istifadə olunmasının bir vasitəsidir ( 9, 258)

Bütün bu müsbət xüsusiyyətlərlə yanaşı, onun mənfi cəhətləri də mövcuddur. Bu da

- partiya üzvlərinin baxışlarının və hərəkatlarının bir istiqamətdə sistematik yönəlməsinə;
- partiyaların sayının çox olması xalqın mənafeyi və iradəsinin ifadə olunmasının çətinləşməsinə;
- Koalisiyalı hökumətin yaranmasına və bununla hökumətdə qeyri sabitliyin yaranmasına;
- Qələbə xatirinə müxtəlif partiyaların kütlənin ən zərif hislərinə toxunmağa hazır olmalarına və nəticədə ictimai mənəviyyatın korlanmasına;
- Ara verməyən mübarizənin hökumətin qüvvəsini zəiflətməsinə, onun qüvvəsinin bir hissəsinin müxalifətlə mübarizəyə sərf edilməsinə səbəb olur (10, 150 ).

Təbii ki, bütün bunlar arzuolunmaz başqa nəticələrə də gətirib çıxara bilər.

Məsələn, koalisiyalı hökumətin yaranması hökumətdə qeyri-sabitliyin yaranmasına səbəb olur. Misal olaraq Türkiyəni göstərmək mümkündür. 1995-ci il parlament seçkilərində Rifah Partiyası-158, Ana Vətən Partiyası-135, Doğru Yol Partiyası 132 mandat əldə etmişdir. Kifayət qədər səs toplaya bilməyən Ana Vətən Partiyası və Doğru Yol Partiyası birlikdə koalisyon hökumət yaratdılar. Lakin onların hakimiyyəti uzun çəkmədi. 1996-cı ilin payızında Rifah Partiyası ilə Ana Vətən Partiyası koalisiya yaratdılar (11, 207). Yaranan koalisiya hökumətləri fikir ayrılığından uzun müddət fəaliyyət göstərə bilməmiş və dağılmışdır. Təbii ki, belə bir idarə sistemini demokratik siyasi sistem hesab etmək olmaz.

Azərbaycan Respublikasında belə hallara təsadüf etmək mümkün deyil, buna səbəb isə partiyaların sayı çox olsa da, bir-birləri ilə rəqabət apara biləcək sosial bazalarının güclü olmamasıdır.

Çoxpartiyalılıq kimi bir sistemə keçmək zərurətinin yaranmasının əsas səbəbi, Azərbaycan Respublikasında demokratik idarəçiliyin bərqərar olması və bundan irəli gələn problemlərin aktuallıq kəsb etməsidir. Bunun Azərbaycan dövlətçiliyi üçün böyük əhəmiyyəti vardır. Siyasi sistemə keçidin özünəməxsus cəhətləri mövcuddur. Demokratik dəyərlərin inkişaf etdirilməsi, dərin sosial-siyasi və iqtisadi problemlərin həll edilməsi istiqamətində müvəffəqiyyətli islahatlar, ölkə vətəndaşlarının siyasi şüur və mədəniyyətinin yüksəldil-

məsi, iqtidar və müxalifət qüvvələrinin müxtəlif sahələr və problemlər üzrə əməkdaşlığı və ya rəqabəti, demokratik seçkilərin keçirilməsi və hakimiyyət bölgüsünün həyata keçirilməsi məhz bütün bunları özünəməxsus cəhətlər hesab etmək olar. Ölkə artıq özünün ilk suveren konstitusiyasını qəbul etmiş, müstəqil dövlətlər arasında özünəməxsus yer tutmağa başlamışdır. Bu dövr daxildə gedən hakimiyyət mübarizəsi və siyasi qüvvələr arasında rəqabətlə səciyyələnir. Demokratik, dünyəvi hüquqi dövlət qurmağı respublikamız özünün əsas məqsədi elan etmişdir.

Süni yolla xalqın rəğbətini qazanan qüvvələr hakimiyyət pillələrinə can atır, dövlət strukturlarını ələ almağa çalışırdılar.

1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasına əsasən hər kəs istənilən birlik, o cümlədən siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai birlik yaratmaq və ya mövcud birliyə daxil olmaq hüququna malikdir. Bütün birliklərin sərbəst fəaliyyətinə təminat verilir. Heç bir kəsi bu birliyə daxil olmağa və ya burada məcbur qalmağa məcbur etmək olmaz. Bundan əlavə qanuna görə bütün ərazidə və ya dövlətin hər hansı bir hissəsində qanuni dövlət hakimiyyətini zorla devirmək məqsədi güdən birliklər qadağan hesab olunur ki, onların da fəaliyyətinə yalnız məhkəmə qaydasında xitam verilə bilər (12, 6 ).

Belə bir nəticəyə gəlinir ki, Azərbaycanda partiya yaratmaq məşğuliyyətə çevrildiyindən qeydiyyata alınmayan partiyaların sayı çoxdur. Azərbaycanda fəaliyyət göstərən bütün siyasi partiyalar və təşkilatlar üçün ölkəmizin ərazi bütövlüyünün təmin olunması, müstəqil dövlətçiliyimizin, suverenliyimizin qorunması və möhkəmləndirilməsi dəyişməzdir.

Hazırda Respublikanın ictimai –siyasi həyatında öz mübarizə vasitələri ilə mühüm rol oynayan, sosial bazası geniş xalq kütləsini əhatə edən partiyalar çox azdır. Ölkədə partiyaların birləşməsinə mane olan səbəb siyasi lider amilidir.

Müxalifət partiyalarının müxtəlif formada birləşməsinə bir neçə dəfə cəhd edilmişdir. 2003-cü ildən sonra Azərbaycan Milli İstiqlal Partiyasının, Azərbaycan Liberal Partiyasının, Azərbaycan Xalq Partiyasının siyasi liderləri istefa verdilər. Lakin bu, partiyaların yaxınlaşmasına səbəb olmadı. Bir partiyada birləşmək bir yana ötən müddət ərzində isə partiyalar parçalanmağa üstünlük vermişlər. Bu da məhz siyasi böhranın göstəricisidir. Böhran narazılığı, ümidsizliyi və ixtilafları artıraraq son nəticədə parçalanmaya gətirib çıxarır.

Məhz bu proses siyasi partiyaların əhali arasındakı nüfuzunun aşağı düşməsinin nəticəsi olaraq, parlament seçkilərində onlarım Milli Məclisdə bir deputat yeri belə ala bilməməsinə səbəb olmuşdur.

## ƏDƏBİYYAT


1. Vəliyev İ., Hüseynov C. Azərbaycanın siyasi partiyaları və ictimai təşkilatları, Bakı: Azərbaycan Ensiklopediyası, 1995, s. 96
2. Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya aktı. Bakı, "Həyat" qəz., 1991-ci il 7 oktyabr
3. Siyasi tarix. II hissə. S.Musayevin rəhbərliyi ilə, Bakı: BDU, 1998, 320 s.
4. Allahyarova T., Məmmədov F. Azərbaycanda Siyasi Partiyalar: Seçkidən-seçkiyə. Bakı: Azərbaycan Respublikasının Prezidenti Yanında Strateji Araşdırmalar Mərkəzi. 2010, 148 s.
5. Siyasi partiyalar haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 1992, 11 s.
6. Mirzəzadə A.B. Azərbaycan Respublikasında çoxpartiyalı sistemin formalaşması xüsusiyyətləri. Bakı: Azərbaycan, 2001. 170 s.
7. Байрамов А. Правовое государство и политические партии. Баку: Азернешр, 1995, s. 122
8. **Ошибка! Недопустимый объект гиперссылки.** Partiyalarla bağlı sayt)
9. Барабанов М.В. Партии и многопартийность в современной России; возникновение, основные тенденции развития. Учебное пособие, М: МГОУ, Москва, 2011, 456 с.
10. Дюверже М. Политические партии. М.: Наука, 2000, 558 с.
11. Сулейманова С.Ю. История тюркских народов (с древнейших времен по настоящее время) Баку: Тэхсил ИПП, 2009, 324с
12. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Elm, 1997, 32 s.


## ХАРАКТЕРИСТИКИ МНОГОПАРТИЙНОЙ СИСТЕМЫ В АЗЕРБАЙДЖАНЕ


**Дж.М.АСКЕРОВА**


### РЕЗЮМЕ


В статье исследуются результаты расширения политической борьбы, а также произошедшие изменения в политической системе, которые создали основу отмены однопартийности и создания многопартийности.

Конечно же, увеличение числа политических партий играла большую роль закона "Политические партии", который был принят в 1992 году. Сегодня несмотря на число зарегистрированных партий они почти не представлены в парламенте.



**Ключевые слова:** политическая партия, политическая система, однопартийность, многопартийность, политическая борьба


## DESCRIPTION OF MULTIPARTY SYSTEMS IN AZERBAIJAN


**J.M.ASGAROVA**


### SUMMARY


As a result of political contest, there occurred changes in the political system which formulated foundation for cancellation of unipartiness and creation of numerous parties. The law "Political parties" which was accepted in 1992 played a great role in the number of parties. Today, in spite of the number of the registered parties they almost do not present in parliament.



**Key word:** a political party, a political system, uniparty, multiparty, political struggle